ATJ, 2022, №2, 103-106

AZƏRBAYCAN TİBB JURNALI
AZERBAIJAN MEDICAL JOURNAL

DOI: 10.34921/amj.2022.2.016

**Əhmədov E.T., Əliquliyev V.Q., Əliyeva M.S., Quliyev S.B., Quliyev A.H.**

# ÇAĞIRIŞÇILARDA ÜZ-ÇƏNƏ PATOLOGİYALARININ MÜASİR VƏZİYYƏTİ

*Azərbaycan Tibb Universitetinin Ağız və üz-çənə cərrahiyyəsi kafedrası, Bakı*

*Məqalədə həqiqi hərbi xidmətə çağırılmış gənclərdə üz-çənə patologiyalarının müasir vəziyyəti barədə məlumat verilib. Üz-çənə nahiyəsinin patologiyaları olan 432 çağırışçı müayinə edilib. Çağırışçılar klinik, laborator, rentgenoloji olaraq müayinə olunub. Ən çox rast gəlinən patologiyalar adentiya, açıq dişləm və aşağı makroqnatiya olub. Müəyyən edilib ki, müayinə üçün göndərilən çağırışçılarda üz-çənə patologiyaları yetərincədir. Alınmış nəticələr təsdiqləyir ki, uşaq və yeniyetmələrdə stomatoloji xidmətin işinin effektiv yerinə yetirilməsi, vaxtında diaqnostikanın və müalicənin aparılması çağırışçıların hərbi xidmətə yararlılıq səviyyəsini artıra bilər.*

***Açar sözləri:****çağırışçılar, üz-çənə nahiyəsinin patologiyaları*
***Ключевые слова:****призывники, челюстно-лицевые патологии*
***Keywords:*** *conscripts, maxillofacial pathology*

Üz-çənə nahiyəsinin xəstəlik və zədələnmələrinin öyrənilməsimüasir ağız və üz-çənə cərrahiyyəsinin aktual problemlərindən biridir. Bu patologiyaların əhalinin müxtəlif yaş qrupu üçün spesifik xüsusiyyətləri vardır. Beləki, yeniyetmələrdə üz-çənə nahiyəsinin patologiyalarının erkən diaqnostikası və müalicəsi inkişaf edən orqanizm üçün çox əhəmiyyətlidir. Uşaq və yeniyetmələrdə stomatoloji və üz-çənə patologiyalarının vəziyyəti sosial-iqtisadi inkişafın ümumi səviyyəsini əks etdirir və cəmiyyətin ümumi rifahının göstəricilərindən sayılır [1-4].

Yeniyetmələrdə üz-çənə nahiyəsinin patologiyalarından ən çox diş-çənə anomaliyalarına rast gəlinir. Diş-çənə anomaliyalarına çənələrin deformasiyaları, dişləmin pozulmaları, dişlərin sayının, formasının dəyişiklikləri və sairə aiddir. Diş-çənə anomaliyalarının öyrənilməsi elmi və praktik cəhətdən əhəmiyyətlidir. Nəzərə almaq lazımdır ki, diş-çənə anomaliyalarının rastgəlmə tezliyinin müəyyənləşdirilməsi tədqiq olunan əhali qrupunun strukturundan, tədqiqat meyarlarından və metodlarından asılıdır [2,3,5].

Diş-çənə anomaliyalarının ən çox yayılmış səbəbləri aşağıdakılardır:

– hamiləliyin pozulması və ananın digər xəstəlikləri;
– uşaq yaşlarında keçirilmiş xəstəliklər;
– burun tənəffüsünün pozulması;
– bətndaxili inkişaf anomaliyaları və bu dövrdə keçirilən travmalar;
– süd dişlərinin çıxarılması;
– uşağın süni qidalandırılması;
– hormonal patologiyalar;
– zərərli vərdişlər;
– çeynəmə yükünün azlığı [6].

Bu səbəblərin profilaktikası isə pediatriyanın və uşaq stomatologiyasının əsas aktual problemlərindən sayılır. Çünki diş-çənə anomaliyaları olan uşaq və yeniyetmələr fiziki və psixoloji inkişafda ciddi problemlərlə üzləşirlər. Bu patologiya yeniyetmələrdə çeynəmə funksiyasına təsir göstərərək nitq pozulmalarına, estetik uyğunsuzluqlara və gicgah-çənə oynağında patologiyalara gətirib çıxarır. Bu da yeniyetmələrin sağlamlığına və sosial adaptasiyasına təsir etməklə onların həyat keyfiyyətini aşağı salır [7-9].

Diş-çənə anomaliyalarından başqa, yeniyetmələrdə anadangəlmə dodaq və damaq bitişməməsinə, onların əməliyyatdan sonrakı vəziyyətinə, çənələrin travmatik və postoperativ defektinə, osteomielitlərə, limfadenitlərə, gicgah-çənə oynağının patologiyalarına, ağızsuyu vəzilərinin xəstəliklərinə və üz-çənə nahiyəsinin digər patologiyalarına rast gəlinə bilər. Bütün bunlarınisə çağırışçılarda olması onların sağlamlığına mənfi təsir göstərir [3, 4, 5].

Ordumuzda xidmət edəcək çağırışçılar yeniyetmə yaş qrupuna aiddir. Üz-çənə nahiyəsinin vəziyyəti çağırışçıların sağlamlığının və o cümlədən həqiqi hərbi xidmətə yararlı olmasının əsas göstəricilərindən biridir.

**Tədqiqatın məqsədi** həqiqi hərbi xidmət üçün çağırılmış şəxslərdə üz-çənə nahiyəsi patologiyalarını öyrənməklə onların hərbi xidmətə yararlı olmasını aşkarlamaqdan ibarətdir.

**Tədqiqatın material və metodları.** Tədqiqatın materialı Azərbaycan Respublikasının müxtəlif şəhər və rayonlarınınSəfərbərlikvə Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətindən 2004-2008-ci illərdə Klinik Tibbi Mərkəzin üz-çənə cərrahiyyəsi şöbəsinə müayinə üçün göndərilmiş 446 çağırışçını əhatə edir. Müayinə olunan 446 çağırışçıdan 14 nəfərdə üz-çənə nahiyəsinin patologiyaları aşkar olunmadığı üçün tədqiqatın materialına aid edilməyib. Digər 432 çağırışçıda müayinə vaxtı üz-çənə nahiyəsinin patologiyaları aşkar edilmişdir. 432 çağırışçıdan 324-ü [75%] Bakı şəhər sakini, 108-i[25%] isə Respublikamızın müxtəlif şəhər və rayonlarının sakinləri olub. Bütün çağırışçıların yaşı 18-dən 35-ə qədər idi. Müayinə üçün göndərilən çağırışçılarda ən çox müraciət 2005-ci ildə [23,15%], ən az müraciət isə 2004-cü ildə [14,35%] olmuşdur.

Bütün çağırışçılardan əvvəlcə tam anamnestik məlumat toplanılıb. Belə ki, xəstəliyin başlama vaxtı, şikayətləri, bu patologiyaya görə müalicə aparılıbsa, onun effekti öyrənilib.

Sonra tədqiqata cəlb edilənlərin uşaqlıqda keçirdikləri infeksion xəstəliklər, həyatı boyu keçirilmiş vəhazırda olan xəstəlikləri, dərman preparatlarına, qidaya qarşı allergiyası, məişət şərati və pis vərdişləri nəzərə alınıb.

Lokal göstəricilərdən üz-çənə nahiyəsinin quruluşu, sifətin asimmetriyası, dəri örtüyünün vəziyyəti, xəstəlikdən sonra baş verən klinik göstəricilər, ağız boşluğunun və dişlərin vəziyyəti, çeynəmə aktının normal yerinə yetirə bilməsi, gicgah-çənə oynağının zədələnmələri, burun tənəffüsünün normal və ya qeyri-normal olması, diş sıralarının forması, qidalanma və nitq funksiyalarının dəyişiklikləri tam dəqiqləşdirilib. Çeynəmə effekti, dişlərin patoloji laxlaması və ağız boşluğunun gigiyenasının vəziyyəti də araşdırılıb.

Çağırışçıların hamısı klinik, laborator və rentgenoloji müayinə edilib. Əvvəlcə laborator analizlər – qanın, sidiyin və nəcisin ümumi analizi aparılıb. Wasserman reaksiyası – RW öyrənilib. Döş qəfəsirentgenoskopiya edilib. Çağırışçıların çoxunda telerentgenoqrafiya aparılıb. Göstərişə əsasən üz skeletinin və çənənin yan tərəflərdən rentgenoloji müayinəsidə aparılıb. Bəzi çağırışçılar göstərişə əsasən digər mütəxəssislərlə konsultasiya edilib.

Tədqiqat vaxtı alınmış nəticələr statistik işlənilib. Bu məqsədlə alınmış nəticələrin etibarlığı Styudentin t-meyarına görə qiymətləndirilib.

**Tədqiqatın nəticələri və onların müzakirəsi.** Müayinə nəticəsində çağırışçılarda üz-çənə nahiyəsinin aşağıdakıpatologiyaları müəyyənləşdirilmişdir:

– Xeyloplastika və uranoplastikadan sonrakı vəziyyət – 56 nəfər (13,0%)

– Yuxarı mikroqnatiya – 35 nəfər (8,1%)

– Yuxarı makroqnatiya – 2 nəfər (0,4%)

– Aşağı mikroqnatiya – 7 nəfər (1,6%)

– Aşağı makroqnatiya – 67 nəfər (15,5%)

– Dərin dişləm – 2 nəfər (0,4%)

– Açıq dişləm –72 nəfər (16,7%)

– Əngin frontal protruziyası – 15 nəfər (3,5%)

– Adentiya – 117 nəfər (27,1%)

– Digər patologiyalar – 59 nəfər(13,7%)

Digər patologiyalara çənələrin travmatik və əməliyyatdan sonrakı qüsurları, osteomielit, gicgah-çənə oynağının xronik artrit və artrozları, boynun anadangəlmə orta kistası və sair patologiyalar aid edilir.

Göründüyü kimi, üz-çənə nahiyəsinin patologiyalarından adentiya [117 nəfər], açıq dişləm [72 nəfər] və aşağı makroqnatiya [67 nəfər] diaqnozları üstünlük təşkil etmişdir. Çağırışçılarda üz-çənə nahiyəsinin xəstəliklərindən ən az rast gəlinənləriisə yuxarı makroqnatiya [2 nəfər] və dərin dişləm [2 nəfər] diaqnozları olmuşdur.

Maraqlıdır ki, normal fizioloji dişləm yalnız 1 çağırışçıda müşahidə edilib. Digərlərinin çoxunda dişləm pozulması qeyd olunub. Adentiyaların çox olmasına görə çağırış yaşlı şəxslərdə diş strukturunun vəziyyəti qeyri-qənaətbəxş qiymətləndirilib. Adentiya olan çağırışçıların çoxu Bakı şəhərinin sakinləri olub [94 nəfər].

Diqqəti cəlb edən parametrlərdən biri də çağırışçılardan 56 nəfərin uşaq yaşlarında cərrahi müalicəyə məruz qalmalarıdır. Belə ki, bu şəxslərdə anadangəlmə dodaq və damaq yarıqlarına görə xeyloplastika və uranoplastika əməliyyatları aparılıb. Lakin nəticə olaraq onlar bu əməliyyatdan sonrakı vəziyyətləri ilə üz-çənə cərrahiyyəsi şöbəsinə hərbi xidmətə yararlı olub-olmamasına görə müayinəyə göndəriliblər.

***Klinik nümunə:*** *"Xəstə R.A., 18 yaşında 7 dekabr 2004-cü ildə Klinik Tibbi Mərkəzin üz-çənə cərrahiyyəsi şöbəsinə rayon Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlər Xidmətindən stasionar müayinə üçün göndərilib. Şikayətləri dişləm pozulmasından, çeynəmə funksiyasının məhdud olmasındandır. Müayinə zamanı sifətində asimmetriya qeyd olunur. Sifət dərisinin rəngi adidir. Sifətin aşağı zonası orta və yuxarı zonalara nisbətən hündürdür. Ağzın açılması sərbəstdir. Ağız boşluğunun müayinəsi zamanı dişləmin pozulması – açıq dişləm for-*

*masında müşahidə edilir. Dişlərin qapanması soldan 26-37, sağdan 16-47 dişlər səviyyəsindədir. Yarığın sagittal ölçüsü – 7-8mm.*

*Damaq ensizdir, dərindir. Selikli qişa adı rəngdədir. Çeynəmə funksiyası pozulub. Qanın ümumi müayinəsində hemoqlobulin – 115 q/l; eritrositlər – 3,5; rəng göstəricisi – 0,9; leykositlər – 6,5; eritrositlərin çökmə sürəti – 9 mm olub. Qanın RW müayinəsi mənfidir. Sidik və nəcisin analizində patoloji dəyişiklik yoxdur. Döş qəfəsinin rentgenoskopiyasında patologiya müşahidə edilmir. Müayinə tam başa çatdırılıb. Aşağıdakı diaqnoz çağırışçıda təsdiqlənib.*

*Diaqnoz: Aşağı qeyri-simmetrik makroqnatiya, açıq dişləm, çeynəmə funksiyasının mülayim dərəcədə pozulması.*

*Çağırışçı hərbi xidmətə yararsız sayılıb".*

Aparılmış tədqiqatdan aydın olur ki, üz-çənə nahiyəsinin patologiyalarına görə tibbi komissiyalardan müayinə üçün göndərilənlərin sayı yetərincədir. Bunlar arasında diş-çənə anomaliyalarının erkən diaqnostikası və müalicəsi daha da aktuallıq təşkil edir. Alınan göstəricilər təsdiq edir ki, rayon və şəhər uşaq poliklinikalarında, stomatoloji poliklinikalarda erkən diaqnostika və müalicə-profilaktik işlər aparılması məqsədəuyğundur.

Ordumuzun müasir vəziyyətini nəzər alaraq, çağırışçıların sağlamlıq vəziyyətinə diqqəti artırmaq lazımdır. Belə ki, üz-çənə nahiyəsinin patologiyaları olan çağırışçıların sağlamlığının keyfiyyətini yaxşılaşdırmaq üçün patologiyaların diaqnostik meyarlarını təkmilləşdirməklə yanaşı, stomatoloji praktikada müalicə-profilaktik tədbirlərin optimallaşdırılmasına şərait yaradacaq və geniş tətbiqi çağırışçıların həyat keyfiyyətini yüksəldəcəkdir.

Tədqiqatın nəticələri təsdiqləyir ki, Respublikamızdauşaq və yeniyetmələrlə məşğul olan stomatoloji xidmətin işinin effektivliyini artırmaq vacib amillərdən sayılır. Əlavə olaraq çox vacib aspekti qeyd etmək lazımdır ki, vaxtında aparılan diaqnostika və müalicə tədbirləri çağırışçıların xidmət üçün yararlılığını artıra bilər.

Bundan əlavə, aşkar olunan patologiyaların erkən diaqnostikası və müalicəsinin müasir üsullarının tətbiqi çağırış yaşlı şəxslərdə stomatoloji xidmətin yüksək səviyyədə effektiv olduğunun göstəricisidir.

Alınan nəticələrdən aydınlaşıb ki, stomatoloji yardımın vaxtında aparılması hərbi xidmətə yararsız olan çağırışçıların sayını azaldacaqdır. Yekun olaraq qeyd etmək istəyirik ki, çağırış yaşlı şəxslərdə, yeniyetmələrdə və uşaqlarda stomatoloji xidmətin işini yenidən qurmaq, məktəblərdə stomatoloji xidmətin saxlanılması və inkişaf etdirilməsiböyük əhəmiyyət kəsb edir.

## ƏDƏBİYYAT


1. Ракоши Т., Грабер Т.М. Зубоальвеолярное и челюстно-лицевое ортодонтическое лечение // Львов: ГалДент. – 2012. – 396 с.[Rakoshi T., Graber T.M. Zuboal'veoljarnoe i cheljustno-licevoe ortodonticheskoe lechenie // L'vov: GalDent. – 2012. – 396 p.]

2. Хорошилкина Ф.Я. Ортодонтия. Дефекты зубов, зубных рядов, аномалии прикуса, морфофункциональные нарушения в челюстно-лицевой области и их комплексное лечение. 2-е изд., испр. и доп. Москва: ООО «Медицинское информационное агентство», 2010. – 592 с. [Horoshilkina F.Ja. Ortodontija. Defekty zubov, zubnyh rjadov, anomalii prikusa, morfofunkcional'nye narushenija v cheljustno-licevoj oblasti i ih kompleksnoe lechenie. 2-e izd., ispr. i dop. Moskva: OOO «Medicinskoe informacionnoe agentstvo», 2010. – 592 p.]

3. Иорданишвили А.К., Солдаткина А.С., Сериков А.А. Стоматологические заболевания у лиц призывного возраста //Вестник Российской военно-медицинской академии. – 2015. - №4., С.106-108[Iordanishvili A.K., Soldatkina A.S., Serikov A.A. Stomatologicheskie zabolevanija u lic prizyvnogo vozrasta //Vestnik Rossijskoj voenno-medicinskoj akademii. – 2015. - №4.,p.106-108]

4. Murariu A., Forna A., Manolache F., Forna N.C. Assessment of the oral health risk factors in young people //Romanian journal of oral rehabilitation. – 2017. – T.9. – №3

5. Солдаткина А.С., Сериков А.А. Характеристика стоматологического здоровья молодого населения России // Актуальные проблемы стоматологии Арктического региона, современные тенденции и перспективы диагностики, лечения и профилактики стоматологических заболеваний. Архангельск: Изд-воСГМУ, 2015,С.85-87 [Soldatkina A.S., Serikov A.A. Harakteristika stomatologicheskogo zdorov'ja molodogo naselenija Rossii // Aktual'nye problemy stomatologii Arkticheskogo regiona, sovremennye tendencii i perspektivy diagnostiki, lechenija i profilaktiki stomatologicheskih zabolevanij. Arhangel'sk: Izd-voSGMU, 2015, p.85-87]

6. Peres K.G., Cascaes A.M., Leao A.T.T., Cortes M.I.D.S., Vettore M.V. Sociodemographic and clinical aspects of quality of life related to oral health in adolescents // Revista de saude publica. – 2013. – T.47. – P.19-28

7. Зав'ялова Т.С., Устінова Л.А., Канюра О.А. Організація вивчення поширеності дефектів в зубних рядів та

факторів ризику розвитку дисфункції скронево-нижньощелепного суглоба у допризивної молоді та призовників мобілізаційного резерву Збройних Сил України //Проблеми військовоіохорони здоров'я – 2012. - №33. – С.88-94 [Zav'jalova T.S., Ustinova L.A., Kanjura O.A. Organizacija vivchennja poshirenosti defektiv v zubnih rjadiv ta faktoriv riziku rozvitku disfunkcii skronevo-nizhn'oshhelepnogo sugloba u doprizivnoi molodi ta prizovnikiv mobilizacijnogo rezervu Zbrojnih Sil Ukraini //Problemi vijs'kovoiohoroni zdorov'ja – 2012. – №33. – p.88-94]

8. De Paula D.F., Santos N.C.M., Silva E.T., Nunes M., F., Leles C.R. Psychosocial implact of dental esthetice on qualit of life in adolescents: association with malocclusion, self-image, and oral health-related issues // Angle Orthod. – 2009. – Vol.79. – P. 1188-1193

9.Saha A.K., Khan M.S.A., Al Mamun S.A., Das D.R., Uddin H., Kamal M.M. Factors affecting oral health in non-commissioned soldiers of Bangladesh army attended the Dhaka Combined Military Hospital // City Dental College Journal, 2013. – T.10. - №1. – P.26-31.

**Ахмедов Э.Т., Аликулиев В.К., Алиева М.С., Гулиев С.Б., Гулиев А.Г.**

## СОВРЕМЕННОЕ СОСТОЯНИЕ ПАТОЛОГИИ ЧЕЛЮСТНО-ЛИЦЕВОЙ ОБЛАСТИ У ПРИЗЫВНИКОВ

*Кафедра челюстно-лицевой хирургии и хирургии полости рта*
*Азербайджанского медицинского университета, Баку*

***Резюме.*** В статье представлена информация о современном состоянии челюстно-лицевой патологии у призывников. У 432 обследованных призывников была выявлена челюстно-лицевая патология. Призывники были обследованы клинически, лабораторно, рентгенологически. Наиболее часто встречающейся патологией были адентия, открытый прикус и нижняя макрогнатия. Установлено, что число направленных на обследование призывников с челюстно-лицевой патологией значительно. Полученные результаты подтверждают, что эффективность работы стоматологической службы с детьми и подростками, своевременная диагностика и лечение их способствует увеличению числа призывников, годных к воинской службе.

**Ahmadov E.T.,Alikuliyev V.K.,Aliyeva M.S.,Guliyev S.B.,Guliyev A.H.**

## THE CURRENT STATE OF PATHOLOGY OF THE MAXILLOFACIAL REGION AMONG CONSCRIPTS

*Department of Oral and Maxillofacial Surgery, Azerbaijan Medical University, Baku*

***Summary.*** The article provides information on the current state of maxillofacial pathology among conscripts. 432 surveyed conscripts were diagnosed with maxillofacial pathology. Conscripts were examined clinically, laboratory, radiologically. The most common pathologies were adentia, open bite and lower macrognathia. It was found that the number of conscripts with maxillofacial pathology sent for examination was significantly higher. The results obtained confirm that the effectiveness of the work of the dental service among children and adolescents, diagnosis in time and treatment of them contributes to an increase in the number of conscripts fit for military service.

***Müəlliflə əlaqə üçün:***
**Əhmədov Elçin Təyyar oğlu** – tibb elmləri doktoru, ATU-nun Ağız və üz-çənə cərrahiyyəsi kafedrasının dosenti, Bakı

***E-mail:*** elcin.67ahmediv@gmail.com